***EŞİTDİM AĞRILI, QARA BİR XƏBƏR...***

Eşitdim ağrılı, qara bir xəbər...
Ürəyimi sancdı qüssə, qəm, kədər

Günəşin bənizi söndü, qaraldı
Sarsıldım, qəlbimi boran, qar aldı.

Heydər el yolunda əridi şam tək,
Vardı ona sonsuz məhəbbət, istək.

Nalə çəkib el-obamız ağladı,
Vətən öz oğluna matəm saxladı.

Ehtiram göstərdi cavan qoca da,
Sədaqətlə rəhbər qaldı ucada.

Türkün mərd övladı Atatürk Heydər
Hər biri  xilaskar, qəhrəman, öndər.

Onlar Türk elinin bahadırları
Xalqım heç unutmaz xilaskarları!

Fevral 2004

***Rafael Ərəstunoğlu***

***Vətəmn sevgisi. – B. : Araz, 2006. – S. 8.***